# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 249/5** **29 dekabr 2013-cü il**

**Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin yoxlanılmasına dair 2014-cü ilin iş planının və Keyfiyyətə nəzarət üzrə müfəttişlərin təsdiqi haqqında**

Auditorlar Palatası Şurasının 2013-cü il 27 avqust tarixli 244/2 saylı qərarının "Keyfiyyətə nəzarətə dair digər ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiqi üzrə təkliflərin müzakirəsi" 10-cu bəndinə və "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qayda"ya uyğun olaraq "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin yoxlanılmasına dair 2014-cü ilin iş planı" və "Keyfiyyətə nəzarət üzrə müfəttişlər" haqqında Palata Şurası yanında fəaliyyət göstərən Keyfiyyətə nəzarət Komitəsinin sədri İ.Bayramovun təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Keyfiyyətə nəzarət Komitəsinin sədri İ.Bayramovun təqdim olunduğu "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin yoxlanılmasına dair 2014-cü ilin iş planı" təsdiq edilsin (əlavə olunur).
2. "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qayda"ya uyğun olaraq Keyfiyyətə nəzarət Komitəsi tərəfindən təklif olunan "Keyfiyyətə nəzarət üzrə müfəttişlər" təsdiq edilsin (əlavə olunur).
3. Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) üzvlük öhdəliklərinə uyğun olaraq Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tətbiqinə keçirilməsi ilə əlaqədar olaraq "Azərbaycanın Milli Audit Standartları" və "Auditorların Peşə Etikası Məcəlləsi" (əlavə olunurlar) qüvvədən düşmüş hesab edilsin.
4. Qərarın mətni, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin yoxlanılmasına dair 2014-cü ilin iş planı", "Keyfiyyətə nəzarət üzrə müfəttişlər"in siyahısı və qüvvədən düşmüş standartların siyahısı Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**